**2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 27 dekabr 2014-cü il tarixli 67 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 102 saylı Samux- Şəmkir seçki dairəsindən Qaracəmirli bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Quliyev Akif Pənah oğlu Mərkəzi Seçki Komissiyasına müraciət edərək həmin seçki dairəsi üzrə 44, 45, 46 və 47 saylı seçki məntəqəsi məntəqə seçki komissiyalarının bəzi üzvlərinin qeydə alınmış namizədlərlə qohumluq əlaqəsi olduğunu, səsvermə zamanı bəzi şəxslərin digər seçicilərin yerinə səs verməsini iddia edərək səsvermənin nəticələrinin etibarsiz hesab edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatının tələblərinə uyğun olduğundan icraata qəbul edilmiş və Mərkəzi Seçki Komissiyası nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Müraciət etmiş şəxsə araşdırma aparılması barədə məlumat verilmiş, ona araşdırmada iştirak etmək hüququ izah edilmişdir.

Araşdırma zamanı 102 saylı Samux-Şəmkir seçki dairəsi dairə seçki komissiyasının və həmin dairənin 44, 45, 46 və 47 saylı məntəqə seçki komissiyası üzvlərinin, Qaracəmirli bələdiyyəsi üzvlüyünə qeydə alınmış digər namizədlərin, həmin seçki məntəqəsində müşahidə aparmış müşahidəçilərin izhatlarına və tərtib edilmiş aktlara əsasən müraciətdə iddia edilən hallar öz təsdiqini tapmamışdır.

Araşdırılıma materiallarına əlavə edilmiş 102 saylı Samux-Şəmkir seçki dairəsi dairə seçki komissiyasının 22 noyabr 2014-cü il tarixli 20/60 saylı qərarından görünür ki, 44 saylı məntəqə seçki komissiyasının sədri A.Ə.Məmmədov və 47 saylı məntəqə seçki komissiyasının sədri F.B.Mehrəliyev yaxın qohumları bələdiyyə üzvlüyünə namizədliyi qeydə alındığına görə seçkilərin yekunları elan olunanadək komissiyasının həlledici səs hüquqlu üzvlüyündən azad edilmişlər.

Araşdırma prosesində seçicilər X.M.İsayev, B.K.İsmayılov, A.Ə.Qocayev və digərləri izahatlarında göstərmişlər ki, səsvermədə onlar şəxsən səs vermiş, digər seçicilərin əvəzinə səs verməmiş və belə halın olduğunu da görməmişlər.

Göstərilənlərdən əlavə olaraq 102 saylı Samux-Şəmkir seçki dairəsi üzrə 44, 45, 46 və 47 saylı məntəqə seçki komissiyalarının üzvləri M.Ə.Bayramova, S.Z.Hüseynova, F.N.Cəfərova, T.N.Həşimov, Qaracəmirli bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər M.B.Abdullayev, L.T.Hüseynova, Ş.M.Məmmədov, həmin seçki məntəqələrində müşahidəçi olmuş S.H.İsayeva, D.M.Bayramova, S.S.Osmanov, A.M.Cəfərova, K.İ.Babayeva öz izahatlarında bildirmişlər ki, səsvermə prosesində qanun pozuntusu müşahidə etməmişlər, hər bir seçici şəxsən səs vermişdir.

Tam, obyektiv və qərəzsiz araşdırma ilə əldə edilmiş yazılı sübutlarla müraciətdə iddia olunan hallar təkzib olunduğundan şikayət təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. 102 saylı Samux- Şəmkir seçki dairəsindən Qaracəmirli bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Quliyev Akif Pənah oğlunun 27 dekabr 2014-cü il tarixli 67 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |